# Kompleks tədbirlər proqramının müəllifi

(Əvvəli 1-ci səhifədə).

Eyni zamanda Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan strateji kurs daxili ictimai-siyasi sabitliyi və tərəqqini də ən yüksək səviyyədə təmin edib. İnsan və vətəndaş hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi və vətəndaşların siyasi həyatda iştirakına yüksək şəraitin yaradılması Prezidentin ən böyük xidmətlərinin nəticələridir. Yeni demokratik seçki ənənələrinin yeni keyfiyyətdə davam etdirilməsi, siyasi pluralizmin ən yüksək səviyyədə təmin olunması bütövlükdə ictimai-siyasi sabitliyi və inkişafı təmin edib. Bütün bunlar isə insan və vətəndaş hüquq və azadlıqlarının əhatə dairəsinin genişlənməsinə, sosial-siyasi təsisatların fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına da xüsusi töhfələr verib. Bir sözlə, siyasi-hüquqi müstəvidə fundamental önəm kəsb edən strateji tədbirlərin görülməsi bu sahənin inkişafına xüsusi töhfələr verməklə yanaşı, ümummilli inkişafın sürətlənməsinə də əhəmiyyətli təkan olub.



Prezident İlham Əliyevin uzaqgörən və praqmatik xarici siyasət strategiyasının qanunauyğun nəticəsi kimi, Azərbaycan beynəlxalq münasibətlər sisteminin nüfuz və güc dairəsində sürətlə irəlilətməkdədir. Ardıcıl şəkildə həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı cənubi Qafqazın təhlükəsizlik qarantı adlandırırlar. Təkcə onu demək kifayətdir ki, ölkəmizin iştirakı olmadan regionda heç bir strateji layihə reallaşdırılmır.

Ölkəmizin dayanıqlı inkişaf səviyyəsinin başlıca göstəricilərindən birini də Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və praqmatik enerji siyasəti təşkil edir. Azərbaycan enerji ehtiyatlarının ixracında çoxsektorlu nəqletmə sisteminə üstünlük verir və dünyanın aparıcı dövlətləri tərəfindən etibarlı strateji tərəfdaş kimi qiymətləndirilir.

Prezident İlham Əliyev ən yeni tarixin qarşıya qoyduğu siyasi-sosial sifarişlərin yerinə yetirilməsi üçün kompleks tədbirlər proqramının müəllifi kimi siyasi-iqtisadi sabitliyin möhkəmlənməsinə baza yaradıb. Cənab Prezident həm birinci dəfə prezident olduğu müddətdə, həm də ikinci dəfə Prezident seçildikdən sonra siyasi-iqtisadi sabitliyi tam yetkin formada möhkəmləndirərək Azərbaycanın regionda ən stabil dövlət olmasını sübut edib. O, ölkənin iqtisadi inkişafına yeni dinamizm elementləri, respublikamızın hərtərəfli sosial-iqtisadi tərəqqisinə nail olmaq üçün tamamilə yeni strategiyasını, makroiqtisadi konsepsiyanı reallaşdırmağa nail olub. Həmin iqtisadi hədəflər «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda öz əksini tapıb. Dövlət başçısı bu proqramı gerçəkləşdirməklə bölgələrin bərabər və tarazlı şəkildə inkişaf etməsinə impuls verib və bütün rayonlarda kompleks tədbirlərin həyata keçirilməsinə nail olub. Bu proqram regionların sosial-iqtisadi inkişafına yol açmaqla yanaşı, ümumilikdə, Azərbaycanın iqtisadi inkişafına təkan verərək makroiqtisadi sabitliyin möhkəmlənməsinə baza yaratmış olub.

Bu gün tam cəsarətlə demək olar ki, ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın Azərbaycan modeli yaranıb. Bu model əsasında uğurla həyata keçirilən və yeni çalarla zənginləşdirilən sosial-iqtisadi siyasətin nəticələri Azərbaycanın həm də beynəlxalq imicinin və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsinə gətirib çıxarıb.

**Aslan CƏLİLOV.**

# Ağsaqqalların gənclərlə görüşü

İyul ayının 29-da Respublika Ağsaqqallar Şurası Qəbələdə Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Göyçay, Ağdaş, Mingəçevir, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən rayonlarının ağsaqqalları və fəal gəncləri ilə görüş keçirmişdir.

İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərin mərkəzi parkında ucaldılmış abidəsini ziyarət etmiş və abidə önünə əklil qoymuş, dahi şəxsiyyətin əziz xatirəsini yad etmişlər.

Sonra görüş «Qafqaz» sport otelin konfrans salonunda davam etdirilmişdir. Tədbirdə Respublika Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, şuranın üzvləri, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev iştirak etmişlər.

Tədbiri Fəttah Heydərov açdı və görüş iştirakçılarını salamladı. Natiq qeyd etdi ki, bu cür görüşlər respublikanın cənub və şimal bölgələrində də keçirilmişdir. Gənclərlə bu görüşlərimizin xüsusi əhəmiyyəti vardır. Belə ki, yaşlı nəslin əldə etdiyi həyat təcrübəsi, bilik və vərdişləri gənc nəsillərə xüsusi nümunədir. Qazanılmış müsbət təcrübəni gənclərimiz mənimsəməli, bu sahədə maariflənməlidirlər.





Bu günkü gənclərimiz sabahın ağsaqqallarıdır. Hamımız—biz ağsaqqallar və gənclər çalışmalıyıq ki, vətənimizin təhlükəsizliyi, sosial-iqtisadi inkişafı, əhalimizin xoşbəxt gələcəyi naminə əlimizdən gələni əsirgəməyək.

Görüşdə yuxarıda adları qeyd olunan rayonların hər birinin ağsaqqallar şurasının və gənclər təşkilatlarının nümayəndələri respublikamızda və eləcə də yaşadıqları rayonlarda görülən abadlıq-quruculuq işlərindən, əhaliyə və gənclərə yerlərdə göstərilən qayğıdan danışmışlar.

Çıxış edənlər əldə olunan uğurlara görə respublika Prezidenti cənab İlham Əliyevə minnətdar olduqlarını bildirmişlər. Onlar ötən 10 il ərzində onun rəhbərliyi altında həyata keçirilən islahatlar, bu islahatlarla bağlı ölkənin sosial-iqtisadi inkişafı, apardığı xarici siyasətlə əlaqədar xeyli uğurlar qazanıldığını vurğuladılar və İlham Əliyevin qarşıdakı prezident seçkilərində də dəstəklənəcəyini söylədilər.

Respublika Ağsaqqallar Şurasının üzvləri Əməkdar elm xadimi, professor Südeyif İmanverdiyev, akademik Teymur Bünyadov bu günkü görüşün əhəmiyyətindən, ağsaqallarla gənclər arasında əlaqələrin forma və metodlarından, bu işlərin müasir dövrümüzdə zəruriliyindən danışmış və fikir mübadiləsi aparmışlar.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək tədbir iştirakçılarını salamlamış, yerlərdə belə görüşlərin vacibliyindən danışmışdır.

Sonda Fəttah Heydərov yekun sözü söyləmiş və tədbiri yekunlaşdırmışdır.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**